# “Vətənpərvərlik epopeyası“ qələmin gücündə

(Əvvəli 5-ci səhifədə).

hədsiz bağlılıqları kitabda öz əksini tapıb. Bibixanım İsayevanın yazdığı hər bir ifadənin ağırlığından hiss olunur ki, mənəvi ana kimi ürəyi dağlanır, sanki sətirə tökdüyü sözləri ilə şəhidlərə layla deyir. O, bu kitabını ərsəyə gətirməkdə böyük bir missiyanı həyata



keçirdi. Bununla şəhidlərin adını tarixə yazdı, Azərbaycan xalqı var olduqca onların həyat və döyüş yolunu yaşatdı, müqəddəs qanları ilə qazandıqları Zəfər tarixini gələcək nəsillərə ərməğan etdi. Şəhidlərin həyat hekayələrini sətirlərdə, kitablarda yaşatdıqca şahid kimi tarixə adını yazdı Bibixanım. Böyük ürəyi ilə xatirələri dinləyib, bitib-tükənməyən söz dünyasına qərq olub, Bibixanım təbirincə desək, bütün cismi çalxalanıb, qəlbinin döyüntüləri kükrədikcə qələmi daha dərinliklərə baş vurub. Şəhidindən yazdıqca qələminin qüdrə-




ti, gücü-qüvvəti daha da artıb və bununla da, Azərbaycan tarixinə dərin iz qoyub. Milli-mənəvi zənginliklə dolu ifadələrin tamlığını əks etdrən kitabın adı kimi həyat hekayələri də həmahənglik təşkil edir.

Oxuyursan, düşünürsən, kövrəlirsən və sonunda fəxr-qürür duyğusu sənə üstün gəlir. Şəhidinin hər anını elə bir qələmlə oxucuya çatdırır ki, sevinc hissi də oxucunu tərk etmir. Şəhidin yalnız vətən azadlığı üçün doğulduğunu, vətən naminə yaşadığının fərqinə varırsan. Bibixanım təbirincə desək “Bir ordu deməkdir bəzən bir urək” ifadəsinin böyüklüyünü, sözün əsl mahiyyətini dərk edirsən. Əlbəttə, bu kitab adi bir kitab deyil, burada ana-övlad sevgisi, ailə tərbiyəsi, vətənpərvərliyin aşılanması, öncə vətən sevgisi, doğma yurd məhəbbəti, qəhrəman xalqın milli qeyrəti, tarixi qan yaddaşı tamamilə əksini tapıb. Azərbaycançılıq məfkurəsi, vətənpərvərlik ideologiyası, müqəddəs vətən anlayışını tam dəqiqliyi, aydınlığını əks etdirən tarixi yaddaşdır bu kitab.

Bu ərəfələrdə kitabın təqdimetmə mərasimi baş tutdu.Mərasimdə iştirak edən vətənini sevən, şəhid ailəsinin kədərinə ortaq, şəhid analarının dərd ortağı olan, şəhid adına hörmət və ehtiram hissi duyan hər bir vətəndaşın sevgisini, üzüntüsünü aydın sezmək olurdu. Mərasimə toplaşan hər bir kəs alqış sənə Bibixanım-deyərək mənən-ruhən rahatlamış şəkildə görünürdü. Çünki 30 illik yolu 44 günə qət edən qəhrəman vətən oğullarının həyat və döyüş yolu tarixə həkk olundu, gələcək nəsillər bütün olanlardan nəticə, şəhidindən nümunə götürə biləcək böyük, əvəzsiz, mən deyərdim ki, müqəddəs bir kitab xalqa töhfə olundu. Şəhid anasının kədərli göz yaşını sevinc göz yaşının əvəz etdiyini, övladım daim tarixdə yaşayaşaq ifadəsinin tamlığı şəhid atalarının simasından aydın görünürdü. Ən nəhayət, bütün bunların razılığı olaraq Bibixanımı alqışlayan vətəndaşların sədalarının gurultusundan aydın görünürdü ki, ”Vətənpərvərlik epopeyası”nı xalqa bəxş edib, vətənpərvər adının əsl ünvanına sahib oldu əziz yazarımız!

**İlhamə SEYIDOVA,**
**“Qəbələ səsi”nin ştatdankənar müxbiri.**

# Mətbuat gələcəyə tarixi sənəddir

(Əvvəli 7-ci səhifədə).

Ənənəvi mətbuat araşdırmaçı jurnalistika, faktların yoxlanılması və peşəkar redaktə prinsiplərinə əsaslanır. Sosial mediada isə dezinformasiya (saxta xəbərlər) riski yüksəkdir. Bu, hər bir vətəndaşın diqqət mərkəzində olmalıdır.

**- Hazırki dövrdə ayrı-ayrı rayonlarda qəzetlərin nəşr olunması (rayon qəzeti) lazımdırmı?**

- Rayon qəzetləri yerli icma üçün mühüm əhəmiyyət daşıyır. Onlar regionun tarixini arxivləşdirir, dövlət qərarları barədə yerli əhalini məlumatlandırır və internetə çıxışı məhdud olan yaşlı nəsil üçün etibarlı məlumat mənbələrindən biri sayılır. Ancaq rəqəmsallaşma və qəzetlərin çatdırılmasında vaxt itkiləri onların əhəmiyyətini müəyyən mənada azaldır.

Rayon icra hakimiyyətinin qərarları yerli təyinatlı elanlar və rəsmi sənədlər əhaliyə əsasən bu qəzetlər vasitəsilə çatdırılır. Həmçinin rayon qəzetləri yerli xəbərləri, mədəni hadisələri və görkəmli şəxsiyyətləri, bir sözlə, bir bölgənin mövcudluğunu sənədləşdirərək gələcək nəsillər üçün yazılı arxiv yaradır.

**- Müasir oxucu və müasir jurnalist necə olmalı?**

- Müasir jurnalist tarixi keçmişini unutmadan zamanın inkişaf yolunu faktiki olaraq qələmə almalıdır. Unutmamalıdır ki, qələminin izi sabahkı nəsil üçün sənədli bir tarixdir. Buna görə də, dezinformasiyadan uzaq olmalıdır. - istər qəzet və jurnallarda, istərsə də, sosial mediyada. Bu, onun peşəsinə məsuliyyət və hörmətinin ən bariz nümunəsidir.

Müasir oxucu isə zamanın nəbzini tutarkən həqiqət carçısını tanımalı, həyatın sağlamlıq tərəfini düşünməlidir. Unutmamalıdır ki, “Əkinçi”dən 151 il ötməsinə baxmayaraq, bu gün də həqiqət carçısı kimi xatırlanır.

Bir sözlə, qəzet hər kəs, hər oxucu üçün önəmlidir və önəmli olmalıdır.

* * *

**- İlahə xanım, qəzetimizin gənc əməkdaşı kimi mətbuat və gənclik-bu haqda düşüncələrinizi oxucularımızla bölüşərsinizmi?**

- Çox sağolun bu maraqlı və aktual suallara görə. Qəzetimizin gənc bir əməkdaşı kimi öz düşüncələrimi oxucularımızla bölüşməkdən məmnunluq duyuram.

Bu gün mətbuat və gənclik arasındaki münasibət tamamilə yeni bir mərhələyə qədəm qoyub. Gənclik dinamikdir, çevikdir və informasiyanı anındaca mənimsəməyə meyillidir. Müasir mətbuat isə gənclərin dinamikasına uyğunlaşmalı, sadəcə xəbər ötürən yox, həm də gəncləri düşündürən, onlara platforma yaradan bir vasitəyə çevrilməlidir. Gənc jurnalistlərin mətbuata gəlişi isə media orqanlarına yeni nəfəs, fərqli baxış bucağı və müasir texnologiyaların gətirdiyi üstünlükləri bəxş edir.

**- Yeni nəslin nümayəndəsi kimi deyə bilərsinizmi, oflayn, yoxsa onlayn fəaliyyət? Hansı müasir jurnalist üçün daha maraqlıdır?**

- Müasir jurnalist üçün bu iki format bir-birini təkzib etmir, əksinə, tamamlayır.

Onlayn fəaliyyət: Çeviklik, operativlik və geniş auditoriyaya çıxış deməkdir. Sosial media, vizual məzmunlar, instant xəbərçilik gənc jurnalistlər üçün böyük yaradıcılıq meydanı açır.

Oflayn fəaliyyət: Prestij, arxiv dəyəri və dərin təhlil deməkdir. Çap olunmuş bir yazının müsahibənin və reportajın çəkisi və analitik dərinliyi hələ də öz əhəmiyyətini qoruyub saxlayır.

Nəticə olaraq isə müasir jurnalist üçün ən maraqlı və effektiv yol Hibrid modeldir-onlayn platformaların çevikliyini çap mediasının dərinliyi və etibarlılığı ilə birləşdirmək.

**- Rayon qəzetinin fəaliyyətini təmin etmək üçün nə etməli? Fikirlərinizi öyrənmək istərdik.**

- Rayon qəzetləri yerli camaatın güzgüsüdür. Bildiyimiz kimi, dövrümüz internet dövrüdür və bir düymə vasitəsilə artıq dünyanın o biri tərəfindən xəbər tuta bilirik. Ona görə də, zəmanənin tələblərinə cavab vermək və xüsusilə gənc oxucuları cəlb etmək üçün müəyyən addımlar atılmalıdır.

Rayonun yalnız rəsmi xəbərlərinə deyil, insan hekayələrinə üstünlük verilməlidir. Yerli gənclərin uğurları, sənətkarlar, fermerlər, maraqlı taleyi olan sakinlərlə müsahibələr.

Nəzərə alsaq ki, indiki dövrdə qəzet oxumayanlar içərisində gənclər çoxluq təşkil edir, ona görə də, gəncləri maraqlandıran mövzulara-təhsil, karyera, idman və asudə vaxtın təşkilinə daha çox yer ayrılmalıdır.

Rayon qəzetləri öz doğmalığını korlamadan müasir trendləri mənimsəyə bilsə, həm yaşlı nəslin etibarlı dostu, həm də gənclərin maraqla izlədiyi bir media orqanı olaraq uğurla fəaliyyət göstərəcəkdir.

Bir rayon qəzetinin-Qəbələnin mətbu orqanı “Qəbələ səsi” qəzetinin gənc jurnalisti həm də, bir gənc vətəndaş kimi bu şərəfli və məsuliyyətli işdə bütün həmkarlarıma işlərində müvəffəqiyyətlər arzu edirəm. Qəzetimizin isə uzunömürlü və bol oxuculu olmasını diləyirəm.

* * *

**- Rais müəllim, qəzet materiallarının yerləşdirilməsi, dizayn işi sizə aiddir. Müasir oxucunu qəzetimizin dizaynı qane edirmi?**

- Dizayn işi ilk baxışdan görülən işə verilən qiymətdir. Mənim fikrimcə, qəzetimizin dizaynı oxucularımızın zövqünə uyğundur. İşlədiyim müddət ərzində demək olar ki, qəzetimizin dizaynı haqqında həmişə qənaətbəxşlik eşitmiş, qəzetin dizayn işinin bir çox qəzetlərin içində fərqlənməsini duymuşam. Bu da məni işimə məsuliyyətimi artırır.

* * *

**- Səhrab müəllim, 56 ildir ki, rayon qəzetinin fotoqrafısınız. Sizin fikrinizcə, qəzetimizin səhifələrində telefonla, yoxsa foto-aparatla çəkilən şəkillər daha effektlidir?**

- İllərin təcrübəsinə əsasən deyə bilərəm ki, ümumilikdə götürdükdə belə foto-aparatlarla çəkilən şəkillər effektli və uzunömürlü sayılırlar. Qəzet səhifələrində isə telefonla çəkilən şəkillər nəşr zamanı effektini itirir. Məhz buna görə də şəkillər foto-aparatla çəkilib qəzet səhifələrində yerləşdirilməlidir.

**Müsahibəni hazırladı:**
**Bibixanım İSAYEVA.**




QƏBƏLƏ SƏSİ

qəzetinə

2026-cı ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 20 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ29AİİB 400400K9446609778149 VÖEN 4402717261*


## İTMİŞDİR

Qəbələ rayon sakini **Mustafayev Rubail Ayaz oğluna** məxsus Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bilet itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Tüntül kənd sakini **Soltanbəyli Kamran İmran oğluna** məxsus **sürücülük vəsiqəsi, şəxsiyyət vəsiqəsi və xidməti vəsiqə itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Soltannuxa kənd sakini **Baxışov Eynulla Cahangir oğluna** məxsus **minik avtomobilinin texniki qeydiyyat sənədi itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon sakini **Osmanov Samir Mustafa oğluna** məxsus **minik avtomobilinin qeydiyyat nişanı itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon sakini **Əkbərov Cavid Vahid oğluna** məxsus **minik avtomobilinin texniki qeydiyyat sənədi itdiyi üçün** etibarsız sayılır.


Baş redaktor Azad Məmmədov

TƏSİSÇİ: Azad MƏMMƏDOV

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: 050 318 90 24
(024) 204-19-14
Ümumi: (024) 204-15-56
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyində 05.09.2025-ci il tarixdə DBF71BC4180C07 nömrəli media reyestri şəhadətnaməsi ilə qeydiyyatdan keçmişdir
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az29AİİB 400400K9446609778149
VÖEN: 4402717261
Kod: 200491

«Qəbələ səsi» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində “Azərmedia” MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 600